AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

MÜTDA
MƏKTƏBƏQƏDƏR VƏ ÜMUMİ TƏHSİL
ÜZRƏ DÖVLƏT AGENTLİYİ

RFM
RESPUBLİKA FƏNN MÜSABİQƏLƏRİ

# Riyaziyyat

## 6-cı sinif

| AD: | SOYAD: |
| --- | --- |
| MƏKTƏB: | SİNİF: |

- İmtahan müddəti 120 dəqiqədir.
- 1-5-ci suallar 3 bal, 6-20-ci suallar 4 bal, 21-25-ci suallar 5 bal ilə dəyərləndirilir.
- Hər səhv cavab öz dəyərinin $\frac{1}{4}$-ni aparır.
- Qeydiyyat prosesindəki məlumatlarla şagirdə verilən kitabçada hər hansı uyğunsuzluq (fənn, bölmə, sinif) olacağı, eyni zamanda kitabçada texniki qüsur aşkarlandığı təqdirdə, imtahan prosesi yekunlaşmadan, zal nəzarətçisi vasitəsilə imtahan rəhbərinə məlumat verilməlidir.
- Məktəblilərarası fənn müsabiqələrinin nəticələrini portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.
- Nəticələr 06.05.2025-ci il tarixindən etibarən elan ediləcəkdir.

**1.** a və b sadə ədədlərdir.
$18 < a < b < 83$ olarsa, $b - a$ fərqi ən çox neçə olar?
A) 47 B) 56 C) 60 D) 62

**2.** Kubun bütün üzlərinə mənfi tam ədədlər yazılıb. Qarşı üzlərdəki ədədlərin hasili bir-birinə bərabərdir.




Kubun şəkildə görünməyən üç üzündə yazılan ədədlərin cəmi ən çox neçə olar?
A) -10 B) -20 C) -30 D) -40

**3.** Üçrəqəmli $\overline{82A}$ ədədinin 9-a bölünməsindən alınan qalıq 7, $\overline{3AB}$ ədədinin 9-a bölünməsindən alınan qalıq isə 2-dir. Buna görə, $\overline{BAA}$ ədədinin 9-a bölünməsindən alınan qalıq neçə olar?
A) 3 B) 4 C) 5 D) 6

**4.** Aşağıda bir ədədin sadə vuruqlarına ayrılmasının alqoritmi verilib.

| | |
|---|---|
| M | 2 |
| N | 5 |
| K | 3 |
| T | 2 |
| S | 2 |
| P | 2 |
| 1 | |

Buna əsasən aşağıdakılardan hansı doğru deyil?
A) M=240 B) N=150 C) K=24 D) T=8

Fənn müsabiqələri

**5.** *x*, *y*, *z* sadə ədədlərdir.
$x \cdot y - x \cdot z = 19$ olduğuna görə $x + y + z$ cəmini tapın.
A) 20 B) 22 C) 24 D) 26

**6.** $\overline{ab}$ ikirəqəmli ədəddir.
$\overline{ab} = 3a + 8b$ olduğuna görə, $\overline{ab}$ ikirəqəmli ədədi aşağıdakılardan hansına hər zaman tam bölünər?
A) 3 B) 5 C) 7 D) 11

**7.** A, B, C üçrəqəmli natural ədədlərdir. Dairələrin içərisində isə onların müxtəlif sadə vuruqları göstərilmişdir.




Buna görə A+B+C cəmi ən az neçə olar?

A) 327 B) 351 C) 393 D) 405

**8.** Aşağıda ikirəqəmli üç natural ədədin hasili verilmişdir.

$$11 \cdot 17 \cdot A$$

Bu hasildən alınan nəticənin 8 natural böləni varsa, A ədədi aşağıdakılardan hansı ola bilməz?

A) 23 B) 37 C) 71 D) 91

**9.** x, y, z natural ədədlərdir.

$0 < y < x < 16$ və $z = \dfrac{x}{y}$ olarsa, y neçə fərqli qiymət alar?

A) 2 B) 3 C) 6 D) 7

**10.** A, B və C natural ədədlərindən seçilən hər hansı ikisi bir-biri ilə qarşılıqlı sadə ədədlərdir. Bu üç ədədin hasili 1050 olarsa, aşağıdakılardan hansı qətiyyən bu üç ədəddən biri ola bilməz?

A) 14 B) 15 C) 21 D) 25

Fənn müsabiqələri

**11.** Düzbucaqlı şəklində bayraq 3 eyni hissəyə bölünmüş və bu hissələrdən ikisi şəkildəki kimi mavi rəngə boyanmışdır.




Ağ rəngli hissənin eni bayrağın enindən 30 sm qısa, sahəsi isə bayrağın sahəsindən 3300 $sm^2$ kiçikdir. Buna görə bayrağın uzunluğu neçə sm-dir?

A) 90 B) 105 C) 110 D) 115

**12.** Rəqəmləri müxtəlif, üçrəqəmli dörd fərqli mənfi tam ədədin cəmi -3201-dir. Buna görə bu ədədlərdən ən böyüyü ən çox neçə olar?

A) -132 B) -176 C) -243 D) -237

**13.** A şəhərindəki əhalinin səkkizdə üçü B şəhərinə gedərsə, iki şəhərin əhalisi bərabər sayda olar. A şəhərinin əhalisi B şəhərinin əhalisindən neçə dəfə çoxdur?

A) 2 B) 3 C) 4 D) 5

**14.** Sürahinin $\frac{2}{3}$ hissəsi su ilə doludur. Sürahidəki suyun $\frac{1}{4}$-i boş stəkanı tam doldura bilir. Buna görə bu stəkanın tutumunun sürahinin tutumuna nisbəti neçə olar?

A) $\frac{1}{6}$ B) $\frac{1}{3}$ C) $\frac{1}{4}$ D) $\frac{5}{12}$

**15.** ABC bərabərtərəfli üçbucağı ilə KLNM kvadratının perimetri bir-birinə bərabərdir.




$AB = 3x+6$ , $BC = 4(x-1)$ , $KL = 9(y-2)$ olarsa, $x+y=?$

A) 10 B) 12 C) 15 D) 18

**16.** Bir-birini döndürən iki çarxın diş saylarının fərqi 45, dövr saylarının nisbəti isə $\frac{7}{4}$-dir.



Buna görə az dövr edən çarxın dişlərinin sayı neçədir?

A) 60 B) 75 C) 90 D) 105

Fənn müsabiqələri

**17.** Aşağıdakı kvadratlara hər bir ədəd solundakı ədədin 4 misli və üstündəki ədədin yarısı olacaq şəkildə yazılır.




Kvadratlara yazılan bütün ədədlərin cəmi 294 olduğuna görə, x-in yerinə hansı ədəd yazılmalıdır?

A) 32 B) 48 C) 64 D) 72

**18.** Bir M natural ədədində olan müxtəlif rəqəmlərin sayı $\boxed{M}$ ilə göstərilir. Məsələn, $\boxed{5202}=3$.
Verilən bərabərliyin ödənilməsi üçün B rəqəminin ala biləcəyi qiymətlərin cəmi neçə olar?

$$\boxed{\overline{3B5}}+\boxed{\overline{56B}}=\boxed{73024}$$

A) 7 B) 9 C) 10 D) 11

**19.** Verilmiş ifadənin cəmi natural ədəddir.

$$\frac{4}{a}+\frac{5}{a}+\frac{6}{a}+\cdots+\frac{18}{a}$$

Buna görə a natural ədədinin ala biləcəyi neçə fərqli qiymət var?

A) 4 B) 5 C) 6 D) 8

Fənn müsabiqələri

**20.** Aşağıdakı toplama əməlində hər bir hərf sıfırdan və bir-birindən fərqli rəqəmi əvəz edir.

$$\overline{xy}+\overline{zk}+\overline{mn}=133$$

Buna görə bu toplama əməlində ikirəqəmli ədədlərdən ən böyüyü ən çox neçə olar?

A) 95 B) 96 C) 97 D) 98

**21.** Aşağıdakılardan hansı ən kiçikdir?

A) ((1 : 2) : 3) : 4 B) (1 : 2) : (3 : 4)
C) 1 : (2 : 3) : 4 D) 1 : ((2 : 3) : 4)

**22.** $\overline{xyz}$ üçrəqəmli ədəddir.

$a \cdot x = 0{,}32$ , $a \cdot y = 0{,}16$ və $a \cdot z = 0{,}4$ olarsa,

$\overline{xyz} \cdot a = ?$

A) 28 B) 32 C) 34 D) 36

**23.** Aşağıdakı cədvəldə bəzi ədədlər verilmişdir.

| | | |
|---|---|---|
| x | | |
| | 70 | |
| | | y |

Bu cədvəldəki ədədlər sütunlar üzrə yuxarıdan aşağıya doğru 40% artırılaraq, soldan sağa doğru isə sətirlər üzrə 50% azaldılaraq yazılır. Buna görə $x - y = ?$

A) 41 B) 49 C) 51 D) 69

**24.** Bir avtomobil yuma firmasında işləyən Nurlan və Sərxanla bağlı aşağıdakılar verilib:

- Nurlan bir saatda 3 maşın, Sərxan isə bir saatda 6 maşın yuya bilir.
- Sərxan Nurlana nəzərən hər maşına 25% daha çox su istifadə edir.
- Sərxan bir çən suyu 6 saatda bitirir.

Buna görə Nurlan bir çən su ilə neçə saat maşın yuya bilər?

A) 10 B) 12 C) 14 D) 15

**25.** Bir avtobusda olan sərnişinlərin 92%-i ingilis dilini bilir. Yolun yarısında ingilis dilini bilənlərin bir qismi avtobusdan düşür. Bu dəfə avtobusda qalan sərnişinlərin 90%-i yenə də ingilis dilində danışa bilir. Buna görə yolun yarısında sərnişinlərin neçə faizi avtobusdan düşmüşdür?

A) 16% B) 20% C) 24% D) 36%